# Ölkəmiz Almaniyada dünyanın ən böyük oyun sərgisində təmsil olunub

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə Azərbaycanın 4 oyun studiyası ("Darts Games", "Cool Bears Game Studio", "Dynamic Box Studio", "AzDimension") Almaniyanın Köln şəhərində keçirilən və dünyanın ən böyük oyun sərgisi hesab edilən "Gamescom"da iştirak edib.




Agentlikdən bildirilib ki, "Dynamic Box" studiyası öz fərdi stendində "Madness Afloat" oyununu nümayiş etdirib və bu da Azərbaycandan olan tərtibatçının tanınması baxımından tədbir iştirakçılarının xüsusi marağına səbəb olub.

Tədbirdə İRİA-nın Startap ekosisteminin quruculuğu şöbəsinin müdiri Camal Ağayev, İnvestisiyalar və ekosistemə dəstək şöbəsinin layihə meneceri Nikita Yudin də iştirak ediblər.

İRİA-nın əməkdaşları bir sıra aparıcı oyun şirkətləri və oyun nəşriyyatçıları (oyunları rəqəmsal platformalarda yayan şirkətlər) ilə bu sahənin Azərbaycanda inkişaf etdirilməsi və əməkdaşlıq mövzularında görüşlər keçiriblər.

Hər il 80-dən çox ölkənin təmsil olunduğu "Gamescom" sərgisi studiyalar üçün investorlara, oyun yayıncılarına və qlobal auditoriyaya çıxış əldə etmək baxımından unikal imkanlar yaradır. Azərbaycan studiyalarının "Gamescom"da iştirakı ölkənin yaradıcı rəqəmsal sənayelərinin inkişafı, o cümlədən qabaqcıl qlobal təcrübənin öyrənilməsi baxımından əhəmiyyət daşıyır.

Mədəniyyət .- 2024.- 30 avqust, (№64).- S.7.